həlledici
əmrini
nə-
nt-
e-
n

# Müstəsna əhəmiyyət daşıyan böyük tarixi hadisə

**1918-ci il sentyabrın 15-də Bakının daşnak-bolşevik işğalından azad edilməsi Azərbaycan tarixində şanlı hadisədir. Bu gün tarixi hadisənin 106-cı ildönümü qeyd olunur.**

Qafqaz İslam Ordusunun uğurlu əməliyyatı nəticəsində Bakının öz



15 sentyabr 1918-ci il. Qafqaz İslam Ordusu Bakıda

hürriyyətinə qovuşması yenicə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti üçün olduqca mühüm bir addım idi. Həmin zaman Nuru Paşanın (Nuri Killigil) komandanlığı ilə Türk və Azərbaycan əsgərlərinin birlikdə döyüşməsi qardaş xalqların birliyinin, bir-birinə olan dərin hörmət və dəstəyin simvolu kimi yadda qaldı.

Bundan üç il əvvəl isə azərbaycanlı əsgərlər Çanaqqala döyüşündə Osmanlı ordusunun tərkibində türk qardaşlarına dəstək vermiş və şəhid olmuşdular. Bu iki hadisə Azərbaycan və Türkiyə xalqlarının ortaq tarixinin, qardaşlığını daha da gücləndirən mərhələlərdir. Çanaqqalada azərbaycanlıların göstərdikləri qəhrəmanlıq və Bakının azad edilməsində türklərin qardaş köməyi, hər iki xalqın sarsılmaz dostluğunu və tarixi bağlarını bir daha təsdiqləyir.

XX əsrin əvvəllərində Qafqazın strateji əhəmiyyətli şəhərlərindən biri olan Bakı neft ehtiyatlarına görə qlobal miqyasda diqqət mərkəzinə çevrilmişdi. Xüsusilə Birinci Dünya müharibəsi ərəfəsində Bakının neft sənayesi dünya iqtisadiyyatı və hərbi-strateji maraqlar baxımından mühüm əhəmiyyət kəsb edirdi. Həmin dövrdə Rusiyada hasil edilən neftin 80 faizdən çoxu Bakıda çıxarılırdı ki, bu da şəhəri regionun neft ixracı üzrə aparıcı mərkəzinə çevirmişdi. Müharibədə iştirak edən dövlətlər üçün Bakı nefti qələbəni müəyyən edən əsas resurslardan biri hesab olunurdu. Həm texnologiya, həm də döyüş əməliyyatlarının sürətlənməsi üçün neftə olan tələbat yüksək idi və Bakının neft mədənləri bu tələbatı qarşılamaqda strateji rol oynayırdılar. Bu səbəbdən, Birinci Dünya müharibəsi zamanı Bakı dünya gücləri tərəfindən münaqişənin nəticəsini dəyişdirə biləcək bir mənbə kimi görünürdü.

1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Xalq Cümhuriyyəti (AXC) elan olundu və iyunun 16-da hökumət Gəncəyə köçdü. Ancaq bu dövrdə Bakı quberniyası Stepan Şaumyan başda olmaqla bolşevik-erməni qüvvələrinin nəzarətində idi. Müstəqilliyini elan edən AXC hökuməti üçün ən vacib məsələ Bakının daşnak-bolşevik qüvvələrindən azad olunması idi. Bakı strateji və iqtisadi baxımdan çox önəmli şəhər və neft sənayesi ilə regionun ən əhəmiyyətli mərkəzi sayılırdı.

AXC-nin qurucularından olan Məhəmməd Əmin Rəsulzadə Türkiyə hökumətinin yüksək vəzifəli rəhbərləri Ənvər Paşa və Tələt Paşa ilə xüsusi görüşlər keçirərək Azərbaycanın müstəqilliyi, Bakının azad edilməsi məsələlərini müzakirə etmişdilər. Bu görüşlər, Türkiyədən hərbi dəstəyin təmin edilməsində vacib rol oynadı. Azərbaycan hökuməti Bakını azad etmək üçün qardaş Türkiyədən yardım istədi və Qafqaz İslam Ordusu yaradıldı.

1918-ci il avqustun 5-də Bakının azad edilməsi üçün ilk addım atıldı. Qafqaz İslam Ordusunun Şərq cəbhəsi komandanı Mürsəl Paşanın rəhbərliyi ilə ordu Qurd qapısı istiqamətindən Bakıya doğru irəlilədi. Bu döyüşlər Qafqaz İslam Ordusu komandanı Nuru Paşa, Əlahiddə Azərbaycan Korpusunun komandanı Əliağa Şıxlinski və digər rəhbər heyət tərəfindən diqqətlə təhlil edildi. Döyüşün uğurla başa çatdırılması üçün hərbi qüvvələrin düzgün istiqamətləndirilməsi və Bakının azadlığı üçün zəruri tədbirlərin planlaşdırılması böyük əhəmiyyət daşıyırdı.



Hərbi qüvvələrin gücləndirilməsi, Bakıətrafı kəndlərin əhalisinin döyüşə səfərbər edilməsi, qoşun hissələrində və könüllü dəstələrdə ruh yüksəkliyinin və qələbə əzminin artırılması kimi mühüm tədbirlər həyata keçirildi. Bu tədbirlər sayəsində Qafqaz İslam Ordusu strateji üstünlüyü ələ aldı və sentyabrın 15-də Bakı işğaldan azad edildi. Bu qələbə Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü üçün böyük bir addım oldu, eyni zamanda xalqın milli ruhunu və birliyini möhkəmləndirdi. Sentyabrın 16-da azadlığa qovuşmuş Bakı ətrafında Osmanlı və Azərbaycan hərbi qüvvələrinin paradı keçirildi. Sentyabrın 17-də isə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Gəncədən Bakıya köçdü və beləliklə, Bakı Azərbaycanın paytaxtı olaraq Cümhuriyyətin siyasi mərkəzinə çevrildi.

1918-ci il sentyabrın 15-də Bakının azad olunması Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı zəminində müstəsna əhəmiyyət daşıyan böyük tarixi hadisədir. Türk qardaşlarımız Bakının azad olunması üçün həyata keçirdikləri hərbi əməliyyatlarda 1130 şəhid veriblər.

Tarix boyunca Türkiyə və Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri çox güclü olub. Bu qardaşlıq təkcə siyasi və diplomatik sahədə deyil, həm də hərbi sahədə özünü göstərib. Vətən müharibəsi zamanı Türkiyənin ölkəmizə verdiyi dəstək bu münasibətlərin ən parlaq nümunələrindəndir.

2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ savaşı zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın haqq işinə verdiyi mənəvi-siyasi dəstək hər iki ölkənin qardaşlığının təcəssümüdür. Ərdoğanın açıq bəyanatları və çıxışları dünya ictimaiyyətinə Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün apardığı mübarizənin ədalətli olduğunu göstərdi. Onun bu çıxışları Azərbaycanın qələbəsində mühüm rol oynadı, beynəlxalq səviyyədə ölkəmizin mövqeyini daha da möhkəmləndirdi və işğal altında olan torpaqlarımızın azad edilməsi üçün Azərbaycanın haqlı mübarizəsinə güclü dəstək verdi.

Beləliklə, Türkiyənin həm siyasi, həm də mənəvi dəstəyi Azərbaycanın Vətən müharibəsində uğur qazanmasında mühüm faktor oldu və iki ölkə arasında dostluq və qardaşlıq əlaqələrinin sarsılmazlığını bir daha sübut etdi.

**Musa BAĞIRLI,**
**"Respublika".**

Respublika. - 2024.- 15 sentyabr (№ 201).- S.5.